# Şəhidlər torpağa, ailələri dövlətə əmanətdir



**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin əməkdaşları tərəfindən Ermənistan silahlı qüvvələrinin sentyabrın 12–14-də törətdiyi təxribatların qarşısını alarkən şəhidlik zirvəsinə ucalan qəhrəman oğulların ailələrini ziyarətlər davam edir. Görüşlərdə şəhid ailələri üçün nəzərdə tutulan sosial dəstək tədbirləri barədə məlumat verilir, onların sosial vəziyyətinin həmişə diqqətdə saxlanılacağı vurğulanır.**

Bugünlərdə Dövlət Sosial Müdafiə Fondunun sədri Himalay Məmişov sentyabrda Ermənistanın törətdiyi təxribatların qarşısını alarkən şəhidlik zirvəsinə ucalan leytenant Ravil Mübariz oğlu Hümbətovun ailə üzvləri ilə görüşüb. Digər şəhid ailələri kimi, Hümbətovlar ailəsinə də Prezidentin aylıq təqaüdünün təyin edildiyi qeyd olunub və fond sədri təqaüd kartını ailəyə təqdim edib. Şəhid ailəsinin digər sosial ödənişlərlə də təmin ediləcəyi və yaşayışının daim diqqətdə saxlanılacağı bildirilib.

Təxribatların qarşısını alarkən şəhidlik zirvəsinə ucalan Seyfəddin Mahmud oğlu Muradovun ailəsi də ziyarət edilib. Görüşdə şəhidin şərəfli döyüş yolundan bəhs olunub, bütün şəhidlərimizin xatirəsinin daim xalqımızın qəlbində yaşayacağı vurğulanıb. Ağstafa rayonunun





Böyük Kəsik kəndində yaşayan ailənin diqqətinə çatdırılıb ki, şəhid Seyfəddin Muradovun ailəsi də həyata keçirilən sosial dəstəklə əhatə olunacaq.

Nazir müavini Hidayət Abdullayev şəhid Zöhrab Azad oğlu Kərimovun Biləsuvar rayonunda yaşayan ailəsinin qonağı olub. Görüşdə bildirilib ki, döyüşlərdə şücaətlər göstərən 19 yaşlı Z.Kərimov düşmənin Laçın rayonu istiqamətində törətdiyi təxribatların qarşısının alınması zamanı şəhadətə qovuşub. Şəhidin ailəsinin sosial vəziyyəti öyrənilib. H.Abdullayev şəhid Z.Kərimovun ailə üzvlərinin dövlətin qayğısı ilə əhatə olunacağını bildirib.

Sosial Xidmətlər Agentliyinin sədri Vüqar Behbudovun Vətən müharibəsi şəhidi Nurlan Əhmədlinin ailəsini ziyarət zamanı onun şərəfli döyüş yolu xatırlanıb. Füzuli istiqamətində gedən döyüşlərdə şəhadətə qovuşan Nurlanın dövlət başçısının sərəncamları ilə “Döyüşdə fərqlənməyə görə”, “Füzulinin azad olunmasına görə” və “Vətən uğrunda” medalları ilə təltifindən söz açılıb. Oğuz rayonunda yaşayan ailə ilə söhbətdə şəhidin müharibədə göstərdiyi şəxsi igidliklərdən bəhs olunub. Şəhid Nurlan Əhmədlinin hər zaman qəlbimizdə yaşayacağı, daim qürur hissi ilə anılacağı vurğulanıb.

Agentliyin sədri, həmçinin şəhid Anar Əliyevin ailəsi ilə görüşüb. Qeyd edək ki, A.Əliyev Füzuli uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalıb, “Döyüşdə fərqlənməyə görə”, “Füzulinin azad olunmasına görə” və “Vətən uğrunda” medalları ilə təltif edilib. Agentliyin sədri ailənin sosial vəziyyəti ilə tanış olub. Bildirib ki, bütün şəhidlərimiz kimi, A.Əliyev də heç zaman unudulmayacaq və hər zaman ehtiramla xatırlanacaq.

Dövlət Məşğulluq Agentliyinin İdarə Heyətinin sədri Mustafa Abbasbəyli şəhid Kənan Nəsibovun Tovuz rayonunda yaşayan ailəsi ilə görüşüb. Kəlbəcər uğrunda döyüşlərdə şəhidlik zirvəsinə ucalan şəhidin müharibədə göstərdiyi şücaətlərdən bəhs olunub. Agentliyin sədri ailənin sosial vəziyyəti ilə tanış olub, eyni zamanda, bildirib ki, dövlət hər zaman şəhid ailələrinin yanındadır və onların sosial təminatı bundan sonra da diqqət mərkəzində saxlanılacaq.

Agentliyin İdarə Heyətinin sədr müavini Nihad Muxtarlı isə Vətən müharibəsi şəhidi Kamran Qasımovun ailəsini ziyarət edib. Qeyd edək ki, dövlət başçısının sərəncamlarına əsasən K.Qasımov “Vətən uğrunda”, “Füzulinin azad olunmasına görə”, “Xocavəndin azad olunmasına görə”, “Cəsur döyüşçü” medalları ilə təltif edilib. Şəhidin atası Fazil Qasımov Dövlət Məşğulluq Agentliyi tərəfindən avtotəmizləmə zərfi üzrə özünüməşğulluq proqramına cəlb edilərək avadanlıqlarla təmin edilib. Vətən müharibəsi veteranı Yunis Zeynalabdiyev ilə də görüş olub. O, agentlik tərəfindən özünüməşğulluq proqramına cəlb edilərək avtomobil şinlərinin bərpası və təmiri xidmətləri üzrə avadanlıqlarla təmin edilib. Görüşlərdə onların bundan sonra da sosial dəstək tədbirləri ilə əhatə olunacaqları bildirilib.

DOST Rəqəmsal İnnovasiyalar Mərkəzinin direktor müavini Fərhad Kərimov Vətən müharibəsi zamanı şəhidlik zirvəsinə ucalan Vüsal Abdullayevin ailəsini ziyarət edib. Söhbət zamanı şəhidimizin keçdiyi şərəfli döyüş yolundan danışılıb, xatirəsinin qəlbimizdə yaşayacağı vurğulanıb. Ölkə rəhbərinin müvafiq sərəncamları ilə Vüsal Abdullayev ölümündən sonra “Vətən uğrunda”, “Cəbrayılın azad olunmasına görə”, “Qubadlının azad olunmasına görə” və “Cəsur döyüşçü” medalları ilə təltif edilib.

Nazirliyin digər əməkdaşları da ötən günlərdə şəhid ailələrini ziyarət edib, onların qayğıları ilə maraqlanıblar. Şəhid Turan Tərlan oğlu Məhərrəmovun Zaqatala rayonunun Qımır kəndində yaşayan ailəsini ziyarət zamanı şəhidimizin keçdiyi döyüş yolundan bəhs olunub. Nazirlik əməkdaşları şəhidin ailə üzvlərinə yaranmış imtiyaz və hüquqları barədə məlumat verib, bildiriblər ki, dövlətimiz tərəfindən şəhid ailələri və müharibə əlilləri daima xüsusi diqqətdə saxlanılır. Şəhidin məzarı ziyarət olunub və bildirilib ki, Vətən uğrunda canlarından keçən cəsur oğullarımızın xatirəsi daima qəlbimizdə yaşayır.

Ermənistan silahlı qüvvələrinin sentyabrda törətdiyi təxribatların qarşısını alan zaman şəhidlik zirvəsinə ucalan Şəmistan Əbdülağa oğlu Sadıxovun Lerik rayonu, Əvilə kəndində yaşayan ailəsi ziyarət edilib. Görüşdə şəhidimizin keçdiyi şərəfli döyüş yolundan bəhs olunub və onun xatirəsinin daim qəlbimizdə yaşayacağı vurğulanıb. Ş.Sadıxovun ailəsinin də daim dövlətimizin qayğısı ilə əhatə olunacağı vurğulanıb. Şəhid ailəsi onlara dövlət tərəfindən göstərilən diqqət və qayğıdan razılıq ifadə edib.

Nazirlik əməkdaşları Vətən müharibəsi şəhidi çavuş Vüsal Dəmirovun İsmayıllı şəhərində yaşayan ailəsini ziyarət ediblər. V.Dəmirov Vətən müharibəsində Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Ölümündən sonra “Vətən uğrunda”, “Füzulinin azad olunmasına görə”, “Xocavəndin azad olunmasına görə” medalları ilə təltif edilib.

Sentyabrda törədilən təxribatların qarşısını alan zaman şəhid olan hərbi qulluqçumuz Elmin Səmədovun ailəsi də ziyarət edilib. Vətən müharibəsində də iştirak edərək böyük şücaət göstərmiş E.Səmədov “İgidliyə görə”, “Zəngilanın azad olunmasına görə” və “Qubadlının azad olunmasına görə” medalları ilə təltif edilib. Ailə ilə söhbət zamanı E.Səmədovun keçdiyi şərəfli döyüş yolundan bəhs olunub, şəhidlərimizin xatirəsinin qəlbimizdə daim yaşayacağı vurğulanıb.

**Zərifə BƏŞİRQIZI,**
**“Xalq qəzeti”**